# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ İLƏ İORDANİYA HAŞİMİYYƏ KRALLIĞININ STATİSTİKA DEPARTAMENTİ ARASINDA STATİSTİKA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA

## S A Z İ Ş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İordaniya Haşimilər Krallığının Statistika Departamenti,

gələcəkdə statistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsində, məlumatların mübadiləsinin genişləndirilməsi və iki dövlət arasında iqtisadi əlaqələrin əks etdirilməsində qarşılıqlı surətdə maraqlıdırlar və

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Tərəflər dövlət sirri təşkil edən məlumatların qorunmasını və göstəricilərin müqayisəliliyini təmin etməklə, hər iki dövlətin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatların mübadiləsi üzrə statistika sahəsində qarşılıqlı əlaqələri və əməkdaşlığı inkişaf etdirəcəklər.

### Maddə 2

Tərəflər statistikanın aşağıdakı sahələrində əməkdaşlığı həyata keçirəcəklər:

- ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik nəşrlərin və çap məhsullarının mübadiləsi;
- statistik müşahidələrin, siyahıyaalmaların və müayinələrin həyata keçirilməsi, statistik göstəricilər sisteminin yaradılması və istifadə edilməsi üzrə statistik materialların və işləmələrin mübadiləsi;
- Tərəfin iş təcrübələrinin öyrənilməsi üçün qarşılıqlı səfərlərin təşkil edilməsi;
- beynəlxalq statistika və iqtisadi təşkilatlar tərəfindən keçirilən tədbirlərdə iştirak məsələləri üzrə birgə fəaliyyət.

### Maddə 3

Əməkdaşlıq bu Sazişin ayrılmaz hissəsi hesab olunan qarşılıqlı razılıq əsasında işlənib hazırlanmış və hər iki statistika təşkilatının rəhbərləri tərəfindən 2 illik dövr üçün təsdiq olunmuş tədbirlər planı əsasında həyata keçiriləcəkdir.

**Maddə 4**

Əməkdaşlıq prosesində digər tərəfdən alınmış informasiya yalnız bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı əsasında üçüncü tərəfə verilə bilər. Əməkdaşlıq prosesində alınan informasiya Tərəfin mənafelərinin ziyanına istifadə edilə bilməz.

**Maddə 5**

Əməkdaşlıq əlaqəsi hər iki Tərəfdən təyin olunmuş vəzifəli cavadeh şəxslər tərəfindən həyata keçirilir.

**Maddə 6**

Tərəflərin qarşılıqlı razılığı əsasında hazırkı Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır.

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri Sazişə xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsi ilə yazılı bildiriş təqdim etməklə bu Sazişin qüvvəsinə xitam verə bilər. Saziş belə bildirişin alındığı tarixdən 6 ay sonra qüvvədən düşmüş hesab edilir.

Bu Saziş Əmman şəhərində “ 29 ” iyul 2007-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autenikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yaranacağı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından** | **İordaniya Haşimilər Krallığının Statistika Departamenti adından** |